# *Soltan ABBAS - 90*



Hörmətli Soltan müəllim!

Sizi 90 yaşınızın tamam olması münasibətilə təbrik edirik. Siz yaradıcılığa ötən əsrin 60-cı illərində başlamısınız. Müntəzəm olaraq qəzet və jurnallarda bədii yaradıcılıq nümunələriniz dərc olunur. Müxtəlif illərdə "Damcı", "Mənə çox öyrəşmə", "Tut ağacı", "Qəzəllər", "Səyyah etdi söz məni", "Rübailər", "Qəzəllər", "Nakam ömrün yaşıl anları", "Ömür töhfəsi", "Torpağın oğlu", "Ömrü yaşadan sözlər", "Yollar ömür yolum", "Həqiqətin ağzı daş saxlamaz", "Ömrün şəhidlik zirvəsi", "Dörd kitab", "Dünya duyumları", "Arxaya baxanda", "Xəzər nəğmələri", "Aşıq Vəlican və Gövhərtac dastanı" kitablarınız işıq üzü görmüşdür. Şeirlərinizin dili rəvan və sadədir, vətənpərvərlik və məhəbbət mövzularında yazdığınız şeirlər oxucuların ürəyinə yol tapıb.

Vətən, torpaq sevgisi, saf məhəbbət, insana insanca yanaşmaq duyğuları, əsrarəngiz təbiət lövhələri sizin poetik dünyanızın ana xəttini təşkil edir. Xalqın ruhundan, elin dünyaduyumundan qaynaqlanan obrazlı şeirlərinizin mayasında inandırıcı bir səmimiyyət var. Siz poetik janrın bütün vəznlərində mükəmməl nümunələr yaratmaqla geniş oxucu auditoriyasının diqqətini çəkmisiniz.

Siz uzun illər Salyanda "Kürün töhfəsi", Neftçalada "Xəzər nəğmələri" ədəbi birliyinə rəhbərlik etmisiniz.

Siz pedaqoji və ictimai işlərdə də fəal iştirak etmisiniz.

Hörmətli Soltan müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti.- 2023- cü il.- 7 yanvar.- S. 16**